**UOT: 339.97, 334.34.**

# KORONAVİRUS PANDEMİYASININ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN DAYANIQLILIĞINA TƏSİRİ

**Ərəstun Nəsib oğlu Cəlilov, *i.ü.f.d.***
***e-mail: c.erestun@mail.ru***

***Xülasə***

*Məqalədə koronavirus pandemiyasının təsiri ilə ərzaq təhlükəsizliyində baş verən dəyişikliklər təhlil edilmişdir. Aparılmış araşdırmalar zamanı dünyanın aparıcı dövlətlərinin iqtisadiyyatında böhranla əlaqədar baş verən zərərlərin miqyası göstərilmişdir. Dövlətlərin yaxın gələcəkdə iqtisadi və siyasi addımlarının istiqaməti açıqlanmışdır. Pandemiya şəraitində Azərbaycan Respublikasının iqtisadiyyatında, o cümlədən ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı baş verən hadisələr təhlil edilmiş, dünya dövlətləri ilə müqayisə olunmuş və dəyərləndirmələr aparılmışdır.*

***Açar sözlər:*** *pandemiya, iqtisadi böhran, dünya iqtisadiyyatı, ərzaq təhlükəsizliyi, qeyri-neft sektoru, ixrac.*

## Giriş

Koronovirus pandemiyası inkişaf etmiş və inkişaf etməkdə olan ölkələri istər iqtisadi, istərsə də sosial sahələrdə çətin vəziyyətə salmışdır. Sərhədlərin karantinlə əlaqədar bağlanması səbəbindən dövlətlərin iqtisadi fəaliyyəti, istehsal, xidmət sahələri tamamilə və ya qismən dayandırılmışdır. İqtisadi aktivliyin zəifləməsi məşğulluğun azalması ilə müşahidə olunur və bu da dünya dövlətlərinin sosial yükünün artması ilə nəticələnir. 2020-ci ilin yanvar-fevral ayının ötən ilin analoji ayları ilə müqayisəsində ABŞ iqtisadiyyatında 4.8% azalma qeydə alınmışdır. Ekspertlərin fikrincə, ilin sonunadək iqtisadiyyatdakı azalmanın tempi yüksələ bilər. Qeyd olunan dövrdə ABŞ-da neft məhsullarının istehlakı 31% azalmış və yarandığı tarixdən ilk dəfə olaraq dövlət borcu rekord həddə: 24.5 trilyon dollar yüksəlmişdir. "Moody"sin təhlilinin nəticələrinə görə ABŞ iqtisadiyyatı 2020-ci ildə 5.7% azalacaqdır. Analoji vəziyyət Avrozona iqtisadiyyatında da müşahidə olunmaqdadır. BMT-nin ekspertlərinin proqnozlarına görə pandemiyanın təsiri nəticəsində 2020-ci ildə dünya iqtisadiyyatı 3.2%, MDB iqtisadiyyatı isə 3.5% azalacaqdır, qlobal birbaşa investisiyalar 40%, 2021-ci ildə isə 5-10% azala bilər.

Avropa Komissiyasının gəldiyi qənaətə görə, Avropa İttifaqı tarixinin ən dərin tənəzzülünə qədəm qoyur. 2020-ci ildə Aİ-də iqtisadi geriləmə 7.4%, Avrozonada isə 7.7% təşkil edəcəkdir. "Fitch" Avrozona dövlətlərinin iqtisadiyyatının 2020-ci ildə 7% azalmasını proqnozlaşdırılır. Avropa Mərkəzi Bankının proqnozuna görə isə Avrozonada ÜDM 12.6%-ə qədər azala bilər. Pandemiyanın sürətlə yayılması səbəbindən turizm sektoru da ciddi mənfi təsirə məruz qalmış sahəyə çevrilmişdir.

Bu ilin I rübündə turizm sahəsinin gəlirliliyində Şimali Amerikada 17.2 milyon dollar, Avropada 34.3 milyon dollar, Asiyada 61.2 milyon dollar, ABŞ-da 15.6 milyon dollar, Çində 47.3 milyon dollar, Almaniyada 5.2 milyon dollar və İtaliyada 4.8 milyon dollar eniş olmuşdur [1].

**Pandemiya böhranının müxtəlif ölkələr üzrə ərzaq təhlükəsizliyinə təsiri**

"COVID-19" koronavirus pandemiyası artıq ərzaq və kənd təsərrüfatı sektorlarına təsir edən qlobal miqyaslı bir böhran olmuşdur. Pandemiya böhranının qarşısını almaq məqsədi ilə dünya dövlətləri həmrəylik göstərərək bir-birilərinə tibbi yardım, istər təcrübə, istərsə də fikir mübadiləsi ilə kömək edərək, böhranın miqyasının böyüməsinin qarşısının alınmasına və iqtisadi ziyanı minimuma endirməyə təşəbbüs göstərirlər. Bununla da ümumi problemi iqtisadi maraqlar baxımından birlikdə dəf etməyə çalışırlar. Bu cür iqtisadi-siyasi yanaşma, bütün dövlətlərin maraqlarını təmin edir. Bu baxımdan da dövlətlər arasında birgə fəaliyyət böhranın zəiflətməsində və aradan qaldırılmasında əsas amil kimi çıxış edə bilər.

ABŞ-ın sabiq prezidenti Con Kennedinin sözləri ilə desək böhran anlayışının qarşılığı olan "krizis," sözü çin dilində iki heroqlifdən ibarətdir: biri "təhlükə", digəri "əlverişli imkan" deməkdir. Məsələ burasındadır ki, birinci "təhlükədə" olan qütb dövlətləri həmrəylik göstərərək birlikdə fəaliyyəti seçdilər. Əlbəttə ki, dövlət maraqları baxımından, heç bir dövlət tək başına problemi həll edə bilməzdi. Bəs ikinci "əlverişli imkan" şəraitində dövlətlər həmrəylik nümayiş etdirib, iqtisadi problemləri aradan qaldırmaq üçün səy göstərəcəkdir? Qeyd olunan statistik rəqəmlərin və ekspert rəylərinin analizi bu fikrə gəlməyə əsas verir ki, böhran dövlətlərin iqtisadiyyatına ciddi ziyan vurmuş və onun miqyasının ilin sonuna qədər daha da genişlənməsi ehtimalı yüksəkdir.

Böhran dövlətlərin ticarət, turizm sektorlarına ziyan vurmaqla yanaşı istehsal və emal sahələri də pandemiyanın mənfi təsirinə məruz qalmışdır.

İxracatda qeyri-mümkün səviyyəyə qədər məhdudiyyətlər qoyulması dövlətlərin iqtisadi tənəzzül riskini sürətləndirmişdir. Bir çox əmtəələrin mövsümi xarakter daşıması və bu məhsulların bazarlarda realizə edilməsinin çətinləşməsi hər bir dövlətin iqtisadi maraqlarına mənfi təsir göstərir. Fikirlərimizi ümumiləşdirərək belə qənaətə gələ bilərik ki, böhrandan sonra iqtisadiyyatlarında yaranmış ciddi problemləri aradan qaldırmaq, iqtisadi yüksəlişi bərpa etmək üçün dövlətlər istər iqtisadi, istərsə də siyasi addımlar atacaqlar. Təbii ki, bu cür addımlar son nəticədə qütbləşməni daha da dərinləşdirəcəkdir. Dərinləşmədə dövlətlərin iqtisadi maraqlarını təmin etmək üçün aparılacaq siyasi, istərsə də iqtisadi mübarizə heç də pandemiya böhranının aradan qaldırılması üçün göstərilmiş həmrəylik kimi eyni xarakterdə olmayacaqdır. Dövlətlərin siyasi maraqlarını böhrandan əvvəlki vəziyyətə gətirmək, təsir dairəsində olan bazarlarda, regionlarda əvvəlki mövqelərini bərpa etmək, möhkəmləndirmək və əlverişli imkandan istifadə edərək digər yeni bazarlarda, regionlarda nəzarəti ələ almaq üçün aparacaqları mübarizə, heç də həmrəylik ruhunda olmayacaqdır.

FAO hesab edirdi ki, ayrı-ayrı ölkələrdə görülən profilaktik tədbirlər pandemiyanın ərzaq təhlükəsizliyi və insanların sosial rifahına səbəb ola biləcəyi mümkün uğursuzluqları qabaqcadan görməyə və yumşaltmağa imkan verəcəkdir. Bu da böhranların şiddətlənməsinə və ərzaq təhlükəsizliyini pisləşdirə biləcək təşviş-çaxnaşma reaksiyalarından yayınmaqdır.

FAO pandemiyanın ərzaq və kənd təsərrüfatına təsirini azaltmaq üçün dünya ölkələrinin həssas əhali qruplarının ərzaqlara olan tələbatını ödənilməsinə, sosial müdafiə proqramlarını fəallaşdırmağa, qlobal ərzaq ticarətini dəstəkləməyə, daxili təchizat zəncirinin mexanizmlərini və kiçik fermerlərin imkanlarını dəstəkləməyə çağırışlar etmişdir [5].

**Pandemiya şəraitində Azərbaycanda dayanıqlı ərzaq təhlükəsizliyinin təmin edilməsi**

Qlobal iqtisadiyyata inteqrasiya olmuş Azərbaycan dövləti üçün də pandemiyanın mənfi təsiri yan keçmədi. Pandemiyanın Azərbaycan iqtisadiyyatına və əhalinin sosial rifahı ilə yanaşı, ərzaq təhlükəsizliyinə təsiri də nəzərə alınmalıdır. Pandemiya ilə əlaqədar ölkə iqtisadiyyatında əhalini ərzaq məhsulları ilə təmin edən sahələrdən başqa digər sahələrdə də iqtisadi fəaliyyət kəskin məhdudlaşdırılmışdır. İqtisadi aktivliyin məhdudlaşdırılması səbəbindən ölkədə 1 milyon insan müvəqqəti olaraq işsiz qalmışdır. Ölkədə əhalinin sosial rifahını sabit saxlamaq, eləcə də sahibkarlara dəymiş ziyanı aradan qaldırmaq məqsədi ilə dövlət tərəfindən dərhal təxirə salınmaz tədbirlər planı həyata keçirilmişdir. İlk növbədə, qeyd olunan sahələrdə problemlərin aradan qaldırılması üçün dövlət büdcəsindən 1 milyard manat nəzərdə tutulsa da, sonradan bu məbləğ 3.5 milyard manata qaldırılmışdır. Tədbirlər Planı çərçivəsində ilk olaraq işsizliklə əlaqədar 200 min insana birdəfəlik yardım göstərmək nəzərdə tutulsa da, sonradan bu rəqəm 600 minə çatdırılmışdır. 300 min kiçik sahibkara isə yardım göstərilməsi həyata keçirilmişdir.

Ölkədə ümumi iqtisadi aktivliyin zəifləməsi, xüsusilə də turizm, kütləvi tədbirlər və mərasim xidmətləri sektorlarında gözlənilən geriləmənin daxili bazarda kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbata müəyyən qədər təsir göstərmişdir. Lakin insanların ərzaq istehlakı qeyd edilən amillərdən asılı olmayaraq davam edir.

Pandemiyanın ərzaq təhlükəsizliyinə əsas təsiri həm də xidmət və iaşə sektorunda işçi qüvvəsinə tələbin azalması və ya işçi qüvvəsinin hərəkətinə maneələr yaratması ilə bağlı olmuşdur. Xüsusilə də, əsas gəlirləri gündəlik gəlirlərdən ibarət olan əhali kateqoriyası pandemiya və sərt karantin rejiminin tətbiq edildiyi dövrlərdə ərzaq təhlükəsizliyi baxımından daha həssas qrupa aid edilir. Belə ki, restoran və şadlıq saraylarında fəaliyyət göstərən personal (administrator, musiqi və rəqs ansamblı, ofisiant, aşpaz, fotoqraf, kameraman, qabyuyan, xadimə və s.), taksi xidmətləri (fərqlənmə nişanı olmadan fəaliyyət göstərən), bərbərxana və bu kimi digər xidmət sahələrində fəaliyyət göstərənlərin xüsusi karantin rejiminin yaratdığı məhdudiyyətlər nəticəsində gəlir və yaşayış səviyyəsi aşağı düşmüşdür.

Ölkədə sosial-iqtisadi sahədə vaxtında aparılmış islahatlar yaranmış böhranın təsirini yumşaltmağa və onu minimum həddə endirməyi təmin etmişdi. Pandemiyadan zərər çəkmiş insanlara tibbi yardım göstərilmiş, onların xəstəxanalara yerləşdirilməsi və müalicə etdirilməsində heç bir problem yaranmamışdır. Böhranlı günlərdə ölkə iqtisadiyyatının gündəlik 120-150 milyon manat maliyyə itkisi verməsinə baxmayaraq, dövlət tərəfindən həyata keçirilən Tədbirlər Planı dayandırılmamışdır. Müşahidələr göstərdi ki, analoji vəziyyətlə Aİ-nin inkişaf etmiş dövlətləri qarşılaşdıqda qeyd olunan problemləri tam şəkildə dəf etmək iqtidarında olmamışdır.

Lakin yuxarıda qeyd edilənlərlə yanaşı dayanıqlı inkişafın təmin edilməsi, gələcəkdə maliyyə resurslarının diversifikasiyasının həyata keçirilməsi, rəqabət qabiliyyətinin artırılması məqsədilə istehsalçıların maliyyə resursları ilə təminat səviyyəsinin yüksəldilməsi və bu sahədə qarşıya çıxacaq risklərin düzgün qiymətləndirilməsi üzrə mexanizmlərin təkmilləşdirilməsi vacib məsələlərdəndir. Bu baxımdan dövlətin ardıcıl və bir-birini tamamlayan tədbirləri reallaşdırması aqrar sektorun inkişaf etməsinə münbit şərait yaradır.

Son illərdə aparılmış islahatlar ölkənin ərzaq təhlükəsizliyin etibarlı şəkildə təmin edilməsində mühüm rol oynamışdı. Karantin rejiminin sərt dövründə belə fermerlərin ölkə daxilində hərəkətinə məhdudiyyətlər qoyulmamışdır. Ölkə əhalisinin yerdəyişməsinə məhdudiyyətlər qoyulsa da,

fermerlərə xüsusi icazələr verilmişdir. Bununla da yaz səpinlərinin (pambıq, şəkər çuğunduru və s.) tam şəkildə başa çatdırılmasında problemler yaranmamışdır. Bu baxımdan ölkənin kənd təsərrüfatı məhsulları ilə təminatında ciddi problemlər yaranmamışdır.

Məhsul yığımı və istehsalı zamanı itkiləri minimuma endirmək, vaxt itkisinə yol verməməklə yığım və tədarük proseslərini başa çatdırmaq, idxaldan asılılığı minimal vəziyyətdə saxlamaq mümkün olmuşdur.

**Nəticə**

Pandemiya böhranının qeyri-müəyyən istiqamətdə inkişafı və hələ də dünya iqtisadiyyatına mənfi təsiri dünyada iqtisadi aktivliyin inkişafına tormozlayıcı təsir edir. Böhranla əlaqədar karantin rejimində olması bütün sahələrə sənaye, yükdaşıma, turizm sektoruna ciddi ziyan vurulmuş və bu, hələ də davam etməkdədir. Hal-hazırda dünyanın bir çox dövlətlərinin iqtisadi aktivliyi böhranın təsirilə əlaqədar daxili tələbatı qarşılamaq üzərində qurulmuşdur. Aparılan təhlillərin nəticəsi onu göstərir ki, bir çox inkişaf etmiş dövlətlərin iqtisadiyyatı kiçilir və tənəzzülə doğru gedir. İqtisadiyyatını neftdən daxil olan vəsaitlər üzərində qurmuş dövlətlər də iqtisadi tənəzzülün geniş miqyasda olma ehtimalı çoxdur.

Ölkənin aqrar sektorunda görülən aqrotexniki tədbirlər pandemiya dövründən əvvələ təsadüf etdiyindən məhsul yığımında, tədarükündə, emalında böhranla bağlı ciddi problemlər yaşanmamışdır. Qeyd olunduğu kimi, aqrar sektorda çalışan insanlara dövlət tərəfindən xüsusi icazələr verilmişdir ki, bu da son nəticədə qeyd olunan sahədə işlərin tamamlanmasında problemlər yaratmamışdır. Aqrar sektorda məhsul yığımını, tədarükünü, emalını vaxtında və itkisiz başa çatdırmaq və resurslardan istifadəyə qənaət etməklə böhranın mənfi təsirini yumşaltmaq olar. Eyni zamanda energetika sahəsində qənaət rejimini işə salmaq məqsədəuyğun olardı. Karantin rejimi ilə əlaqədar ölkədən xaricə turist axını dayanmışdır. Bu baxımdan da turistləri regionlara istiqamətləndirmək regionların inkişafina müsbət təsir edər ki, bu da böhranla əlaqədar regionlara dəymiş ziyanı qismən də olsa, aradan qaldırmış olar.

**Ədəbiyyat**


1. Avropa Mərkəzi Bankı. https://www.ecb.europa.eu/home/html/index.en.html
2. Azərbaycan Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/
3. Dünya Bankı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) ekspertlərinin hesablamaları. http://iqtisadiislahat.org/
4. Z. Səmədzadə "Azərbaycan iqtisadiyyatı yeni müstəvidə". http://www.aii.az/az/pages/8/information/54
5. ФАО. Вспышка коронавирусной инфекции COVID-19. http://www.fao.org/2019-ncov/ru/

*Ph.D.* A.N. Jalilov

**The impact of the coronavirus pandemic on the sustainability of food security**

*Summary*

*The article analyzes the changes in food security caused by the coronavirus pandemic. The study shows the scale of the damage inflicted on the economies of the world's leading countries. The direction of economic and political steps of the state at the nearest time is revealed. The events that took place in the economy of the Republic of Azerbaijan in the context of the pandemic, including the provision of food security, were analyzed in comparison with other countries and assessed.*

***Keywords:*** *pandemic, economic crisis, world economy, food security, non-oil sector, exports.*

*Д.ф.э.н.* А.Н. Джалилов

**Влияние пандемии коронавируса на устойчивость продовольственной безопасности**

*Резюме*

*В статье анализируются изменения в продовольственной безопасности, вызванные пандемией коронавируса. В исследовании показывается масштабы ущерба, нанесенного кризисом экономикам ведущих стран мира. Раскрывается направление экономических и политических шагов государств на ближайшее время. События, произошедшие в экономике Азербайджанской Республики в контексте пандемии, в том числе обеспечение продовольственной безопасности, были проанализированы в сравнении с другими странами и проведены оценки.*

***Ключевые слова:*** *пандемия, экономический кризис, мировая экономика, продовольственная безопасность, ненефтяной сектор, экспорт.*